# Konstitusiya Məhkəməsi

**“Süngün” Məhdud Məsuliyyətli Cəmiyyəti**

Ərizəçi

**Açıq Məkanda Reklam Agentliyi**

Cavabverən

**4C**

(komanda nömrəsi və ərizəçi və ya cavabverən olmasını göstərən baş hərf)

**26.09.2023**

**(tarix)**

**Mündəricat**


İstifadə olunmuş mənbələr ........................................................................................ 3

Giriş ........................................................................................................ 5

İşdə istifadə edilən faktlar ........................................................................................ 5

Hüquqi arqumentlər ........................................................................................ 6

A. Xüsusi mülkiyyətin girişində yerləşdirilmiş lövhənin reklam hesab edilməsi və lövhə üçün açıq məkanda reklam kimi icazə və ödəniş tələb olunması konstitusional mülkiyyət hüququna zidd deyil. ........................................................................................ 6

1. Xüsusi mülkiyyətin girişində yerləşdirilmiş lövhənin reklam hesab edilməsi və lövhə üçün açıq məkanda reklam kimi icazə və ödəniş tələb olunması qanunidir. ........................ 6

a) Xüsusi mülkiyyətin girişində yerləşdirilmiş lövhənin reklam hesab edilməsi qanunidir. ........................................................................................ 6

b) Lövhə üçün açıq məkanda reklam kimi icazə və ödəniş tələb olunması qanunidir. .... 7

2. Xüsusi mülkiyyətin girişində yerləşdirilmiş lövhənin reklam hesab edilməsi və lövhə üçün açıq məkanda reklam kimi icazə və ödəniş tələb olunması cəmiyyətin ümumi maraqlarına uyğundur. ........................................................................................ 7

3. Xüsusi mülkiyyətin girişində yerləşdirilmiş lövhənin reklam hesab edilməsi və lövhə üçün açıq məkanda reklam kimi icazə və ödəniş tələb olunması demokratik cəmiyyətdə zəruridir. ........................................................................................ 8

B. Reklam qanunvericiliyinin reklam və qeyri-reklam fəaliyyəti göstərən şəxsləri fərqləndirməməsi konstitusional bərabərlik hüququnu pozmur. ............................................. 8

1. Reklam qanunvericiliyinin reklam və qeyri-reklam fəaliyyəti göstərən şəxsləri fərqləndirməməsi “qanuni məqsəd” daşıyır ............................................................ 9

2. Reklam qanunvericiliyinin reklam və qeyri-reklam fəaliyyəti göstərən şəxsləri fərqləndirməməsində “istifadə olunan vasitələr və güdülən məqsəd arasında ağlabatan mütənasiblik əlaqəsi” mövcuddur. ........................................................................ 9

C. İcazə ilə bağlı dövlət rüsumundan əlavə yayım haqqının tələb edilməsi qaydası dövlət ödənişlərinin qanunla müəyyən edilməsi barədə konstitusional tələbə uyğundur. .................. 10

1. İcazə ilə bağlı yayım haqqının əsası qanunla müəyyən edilmişdir. .............................. 10

2. İcazə ilə bağlı yayım haqqının həcmi “qanunla” müəyyən edilmişdir .......................... 10

D. Əvvəlki dövrə aid icazə alınmasının və ödənişlərin tələb edilməsi hüququyğundur. ...... 11

1. Şirkət tərəfindən qanunun yanlış təfsir edilməsi qanundan irəli gələn pozuntunu aradan qaldırmır. ........................................................................................ 11

2. Tərəflər arasında icazə alınması və yayım haqqının ödənilməsi münasibətləri publik hüquq münasibətləridir. ........................................................................................ 12

Arqumentlərin xülasəsi ........................................................................................................ 12
Məhkəməyə müraciət........................................................................................................ 13

# İstifadə olunmuş mənbələr

### Qanunlar və Konvensiyalar

1. Azərbaycan Respublikasının Konstitusiyası (1995).
2. "Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu (2015).
3. "Açıq məkanda reklam fəaliyyəti ilə bağlı bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı (2017).
4. İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyasının 1 saylı Protokolu (1954).
5. "Reklam haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında Azərbaycan Respublikası Prezidenti Fərmanı (2015).
6. Azərbaycan Respublikasının Mülki Məcəlləsi (1999).
7. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 31 iyul tarixli 1566 nömrəli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinin Nizamnaməsi (2017).

### Məhkəmə qərarları

1. "Sabiq Yunanıstan Kralı və digərləri Yunanıstana qarşı" işi üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Qərarı (no. 25701/94, 2002-ci il).
2. "Broniovski Polşaya qarşı" işi üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Qərarı (no. 31443/96, 2004-cü il).
3. "Vistins və Perepjolkins Latviyaya qarşı" işi üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Qərarı (no. 71243/01, 2014-cü il).
4. " "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 37.3.4-cü maddəsinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair" Konstitusiya Məhkəməsinin Qərarı, (14.11.2014).
5. Gine Wilhelmina Elisabeth Hoogendijk-in təqdim etdiyi ərizənin qəbuledilənliyi haqqında İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Qərarı (no. 58641/00, 2005-ci il).
6. "Stummer Avstriyaya qarşı" işi üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Qərarı (no. 37452/02, 2011).
7. "Fabris Fransaya qarşı" işi üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Qərarı (no. 16574/08, 2013).
8. "Təsdiq edilmiş bələdiyyə ovçular birliyinin yaradıldığı tarixdə mövcudluğu tanınmış" torpaq mülkiyyətçiləri birlikləri ilə həmin tarixdən sonra yaradılmış torpaq mülkiyyətçiləri

birlikləri arasında rəftar fərqinə dair İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Məsləhətçi Rəyi (2022).
9. “Larkos Kiprə qarşı” işi üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Qərarı (no. 29515/95, 1999).
10. “Molla Sali Yunanıstana qarşı” işi üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Qərarı (no. 20452/14, 2018).
11. “Andrejeva Latviyaya qarşı” işi üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Qərarı (no. 55707/00, 2009), § 83; “Burden və Burden Birləşmiş Krallığa qarşı” işi üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Qərarı (no. 13378/05, 2008).
12. “ “Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında” AR Qanununun 2.1.5-ci maddəsinin AR Mülki Məcəlləsinin 1151.1, 1152, 1243, 1255 və 1321-ci maddələri baxımından şərh edilməsinə dair” Konstitusiya Məhkəməsinin Qərarı (08.12.22).
13. “A.Aslanov və L.Səbizovanın şikayətləri üzrə AR Ali Məhkəməsinin İİK-n 18/05/16 il tarixli qərarlarının AR Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair” Konstitusiya Məhkəməsinin Qərarı (10.03.2017).

**Kitablar və Məqalələr**

1. Aida Grgiæ, Zvonimir Mataga, Matija Longar and Ana Vilfan, “The right to property under the European Convention on Human Rights”.
2. Cambridge Dictionary Online. (Elektron resurs): https://dictionary.cambridge.org/tr/s%C3%B6zl%C3%BCk/ingilizce/social (son baxış: 24 sentyabr 2023).
3. Guide on Article 14 of the European Convention on Human Rights and on Article 1 of Protocol No. 12 to the Convention, § 50. (Elektron resurs: https://www.echr.coe.int/documents/d/echr/Guide_Art_14_Art_1_Protocol_12_ENG (son baxış: 24 sentyabr 2023).
4. Mehdiyev Fərhad, Hüquq nəzəriyyəsi, 2017.
5. Gözler Kemal, Hukuka Giriş, 2022.
6. Edis Seyfullah, Medeni hukuka giriş ve başlangıc hükümleri, 1983.
7. Atay Cevdet, Hukuka giriş, 1997.
8. Bilge Necip, Hukuk Başlangıcı: Hukukun temel kavramı ve kuramları, 2005.
9. Gözübüyük A.Şeref, Hukuka giriş ve hukukun temel kavramları, 2006.

# Giriş

Ərizəçi "Süngün" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra "Şirkət") cavabverən Açıq Məkanda Reklam Agentliyinin (bundan sonra "Agentlik") mövqeyinin əksinə olaraq, xüsusi mülkiyyətində yerləşdirdiyi lövhənin Qanunun məqsədləri üçün "reklam" və "açıq məkanda reklam" hesab edilməsinin düzgün olmaması qənəatindədir. Lakin qanunvericiliyinin tələblərinin ziddinə olaraq, Şirkət nəzərdə tutulmuş yayım haqqının tam şəkildə ödənilməsindən imtina etmiş və məktubla etiraz etmişdir. Şirkətin mövqeyinə görə, Agentlik mövcud vəziyyətdən sui-istifadə etmişdir. Agentlik isə hesab edir ki, Şirkətin iddiası əsassızdır və kassasiya instansiyasının qərarı qanunidir.

# İşdə istifadə edilən faktlar

1. Ərizəçi "Süngün" MMC Topçubaşov rayonu ərazisindəki "Tikantəpə" qızıl mədənində mədən-hasilat şirkətləri üçün avadanlıq təchizatı və mühəndislik xidməti göstərən şirkətdir.
2. Respublika əhəmiyyətli yollardan birinin 500 metr qərbində Şirkətin xüsusi mülkiyyəti olan və fəaliyyət göstərdiyi bazanın girişində 2013-cü ildən lövhə yerləşdirmişdir.
3. 01.08.2017-ci ildə Reklam qanunvericiliyinə açıq məkanda reklam fəaliyyətini tənzimləyən dəyişiklikliklər edilmiş və nəzarət funksiyası Açıq Məkanda Reklam Agentliyinə (bundan sonra "Agentlik") verilmişdir.
4. 02.07.2017-ci ildə Agentlik tərəfindən bu dəyişikliklərinin "açıq məkanda təhlükəsizliyi, estetik və xoşagəlimli ətraf mühiti təmin etmək", "görüntü kirliliyini aradan qaldırmaq və ictimai təhlükəsizliyi qorumaq" məqsədi daşıdığı açıqlanmışdır.
5. 17.04.2020-ci ildə Agentlik Şirkətə bildiriş göndərərək lövhə üçün açıq məkanda reklam kimi icazə almalı olduğunu bildirmişdir. Şirkətin etirazına baxmayaraq Agentlik tərəfindən inzibati xəta haqqında iş üzrə icraat başladılacağı bildirilmişdir.
6. 19.06.2020-ci ildə Şirkət tərəfindən Agentliyin sahə üzrə inspektorunun məsləhəti əsasında hazırlanmış məktubla lövhəyə icazə verilməsi ilə bağlı Agentliyə müraciət edilmişdir.
7. Agentlik Şirkətdən 01.01.2018-01.01.2021 dövrü üçün 1632 manat dövlət rüsumu və 4078.08 manat yayım haqqı tələb etmişdir.
8. Şirkət icazənin alınması üçün müraciət edilən tarixdən əvvəlki dövrə aid ödənişlərin ödənilməsindən imtina etmiş, Agentlik isə bu səbəbdən icazənin verilməsindən imtina etmişdir.
9. 07.08.2020-ci ildə Agentlik Şirkəti İnzibati Xətalar Məcəlləsinin 428.7.1. maddəsi ilə 5000 manat cərimələmişdir.
10. 17.08.2020-ci ildə Şirkət Agentliyə qarşı Topçubaşov İnzibati Məhkəməsində iddia qaldırmışdır.
11. Birinci instansiya məhkəməsi iddianı qismət təmin etmiş, appelyasiya instansiyası birinci instansiya məhkəməsinin qərarını olduğu kimi saxlamış, kassasiya instansiyası qərarın ləğvi və yenidən araşdırılması üçün appelyasiya instansiyasına göndərilməsi qərarına gəlmişdir. Appelyasiya instansiyası iddianın rədd edilməsi barədə qərar vermis, kassasiya instansiyası Şirkətin növbəti müraciətini qəbul etməmişdir.

## Hüquqi arqumentlər

**A. Xüsusi mülkiyyətin girişində yerləşdirilmiş lövhənin reklam hesab edilməsi və lövhə üçün açıq məkanda reklam kimi icazə və ödəniş tələb olunması konstitusional mülkiyyət hüququna zidd deyil.**

Xüsusi mülkiyyətin girişində yerləşdirilmiş lövhənin reklam hesab edilməsi və lövhə üçün açıq məkanda reklam kimi icazə və ödəniş tələb olunması konstitusional mülkiyyət hüququna zidd deyil, çünki "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın (bundan sonra "Avropa Konvensiyası") 1-ci Protokolunun 1-ci maddəsi, buna müvafiq olaraq da Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra "Konstitusiya") 29-cu maddəsində göstərilən mülkiyyət hüququ mütləq deyil; qanuni (1), cəmiyyətin ümumi maraqlarına uyğun (2), həmçinin demokratik cəmiyyətdə zəruri (3) olduğu hallarda mülkiyyət hüququna müdaxilə istisna edilmir.[1]

**1. Xüsusi mülkiyyətin girişində yerləşdirilmiş lövhənin reklam hesab edilməsi və lövhə üçün açıq məkanda reklam kimi icazə və ödəniş tələb olunması qanunidir.**

Avropa İnsan Hüquqları Məhkəməsi (bundan sonra "AİHM" praktikasına əsasən, dövlət orqanları tərəfindən mülkiyyətdən maneəsiz istifadə hüququna istənilən müdaxilə qanuni olmalıdır.[2] Qanunilik prinsipi daxili qanunvericiliyin tətbiq edilə bilən normalarının kifayət qədər əlçatan, dəqiq və tətbiq edilərkən onların nəticələrini öncədən görməyin mümkünlüyünü ehtiva edir.[3] Belə olduqda bu məsələyə ayrılıqda - xüsusi mülkiyyətin girişində yerləşdirilmiş lövhənin reklam hesab edilməsinin qanuniliyini (a) və lövhə üçün açıq məkanda reklam kimi icazə və ödəniş tələb olunmasının qanuniliyini (b) təhlil etmək daha məqsədəuyğun olar.

**a) Xüsusi mülkiyyətin girişində yerləşdirilmiş lövhənin reklam hesab edilməsi qanunidir.**

Azərbaycan Respublikasında reklama həsr olunmuş əlçatan qanun mövcuddur və bu qanun reklam anlayışını 'reklam istehlakçısının diqqətini reklam obyektinə müxtəlif vasitə və üsullardan istifadə olunmaqla istənilən formada cəlb etmək, marağını formalaşdırmaq və saxlamaq, əmtəəni bazarda tanıtmaq və satışını stimullaşdırmaq məqsədi ilə yayımlanan məlumat' kimi ehtiva edir.[4] Eləcə də həmin qanuna əsasən, reklam obyekti dedikdə reklam olunan mallar, işlər və xidmətlər (bundan sonra "əmtəə"), onun fərdiləşdirilmə vasitələri, həyata keçirilən kommersiya və qeyri-kommersiya xarakterli tədbirlər nəzərdə tutulur.[5]

İşin hallarından da məlum olduğu kimi "Süngün" MMC (bundan sonra "Şirkət") əsas fəaliyyəti mədən-hasilat şirkətləri üçün avadanlıq təchizatı və mühəndislik xidmətlərinin göstərilməsindən ibarət olan hüquqi şəxsdir.[6] Qeyd edilməlidir ki, Şirkət Respublika əhəmiyyətli yollardan birinin üzərində öz lövhəsini və lövhə üzərində "İstehsal Bazası" sözlərini yerləşdirərək göstərdiyi

---

[1] Aida Grgiæ, Zvonimir Mataga, Matija Longar and Ana Vilfan, "The right to property under the European Convention on Human Rights", s. 12.

[2] "Sabiq Yunanıstan Kralı və digərləri Yunanıstana qarşı" işi üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Qərarı (no. 25701/94, 2002-ci il), § 79.

[3] "Broniovski Polşaya qarşı" işi üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Qərarı (no. 31443/96, 2004-cü il), § 147.

[4] "Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu, maddə 2.0.1 (2015).

[5] Yenə orada, maddə 2.0.3.

[6] Müsabiqə işinin 1-ci hissəsi.

xidmətləri, yəni reklam obyektini reklam istehlakçılarının diqqətinə çatdırmağı nəzərdə tutmuşdur. Belə ki, həmin yolun üzərində "Tikantəpə" qızıl mədəninə və mədənlə bağlı fəaliyyət göstərən müxtəlif istehsalat bazalarına aparan yolların olduğunu nəzərə alsaq,[7] Şirkət lövhə üzərindəki "İstehsal Bazası" yazısını məhz öz xidmətlərinin mədən şirkətlərinə uyğun olduğu yönündə istehlakçıların marağını formalaşdırmaq məqsədi güdür. Buna görə də Agentlik tərəfindən lövhənin reklam hesab edilməsi tam şəkildə qanunvericiliyə uyğundur və əsaslıdır.

**b) Lövhə üçün açıq məkanda reklam kimi icazə və ödəniş tələb olunması qanunidir.**

Öncəliklə, "qanuni" ifadəsi yalnızca formal mənada "qanun" anlayışını deyil, həm də onunla əlaqəli digər qanunvericilik aktlarını nəzərdə tutur.[8] Buna əsasən qeyd olunmalıdır ki, lövhə üçün açıq məkanda reklam kimi icazə və ödəniş tələb olunması 19 dekabr 2017-ci il tarixli Fərmana əsaslanır.[9] Fərmana nəzər saldıqda müşahidə etmək mümkündür ki, icazə alınması və ödəniş edilməsi qaydaları kifayət qədər aydın şəkildə qeyd olunub və Agentlik tərəfindən hər bir icazə proseduru və ödənişin hesablanma qaydası bu Fərmana uyğun şəkildə həyata keçirilmiş, üstəlik, Şirkət tərəfindən də bu məsələ ilə əlaqədar hər hansı bir etiraz daxil olmamışdır.

**2. Xüsusi mülkiyyətin girişində yerləşdirilmiş lövhənin reklam hesab edilməsi və lövhə üçün açıq məkanda reklam kimi icazə və ödəniş tələb olunması cəmiyyətin ümumi maraqlarına uyğundur.**

Qeyd olunduğu kimi Avropa Konvensiyası dövlətin ümumi maraqlara uyğun şəkildə mülkiyyətin istifadəsinə nəzarət etmək hüququnu istisna etmir.[10] Halbuki bu məqamda hər bir dövlət öz cəmiyyətində mövcud olan ümumi maraqlara daha yaxşı bələd olduğundan cəmiyyətin ümumi maraqlarının əhatə dairəsini müəyyənləşdirmək yerli hakimiyyət orqanlarının səlahiyyətindədir.[11]

İcazə və ödəniş sisteminin tətbiqində əsas məqsəd şəxsləri ətraf mühitin estetika və təbii quruluşunu pozmaqdan, bununla yanaşı ictimai təhlükəsizliyə risk yarada biləcək müəyyən ölçülərdən böyük obyektlərin quraşdırılmasından çəkindirməkdir.[12] Bununla da cəmiyyətin ümumi maraqları müdafiə olunur, həmçinin onlara təhlükə yarada biləcək amillərdən birinə məhdudiyyət qoyulur. Şirkətin Respublika əhəmiyyətli yola yaxın yerdə quraşdırdığı lövhəyə nəzər saldıqda lövhənin bu cür əhəmiyyətli yolda diqqət yayındırma ehtimalının mövcudluğunu və səliqəsiz yerləşdirilməsi nəticəsində ictimai estetikaya zərər vurduğunu müşahidə etmək mümkündür. Agentlik tərəfindən Şirkəti bu cür lövhələrin quraşdırılmasından çəkindirmək məqsədi ilə lövhə üçün icazə və ödəniş tələb olunması isə cəmiyyətin ümumi maraqlarını müdafiə etmək məqsədi daşıyır.

---

[7] Müsabiqə işinin 2-ci hissəsi.
[8] Yuxarıdakı istinad 1.
[9] "Açıq məkanda reklam fəaliyyəti ilə bağlı bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı (2017).
[10] "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 1-ci Protokolu, maddə 1 (1952).
[11] Yuxarıdakı istinad 2, § 87.
[12] Müsabiqə işinin 13-cü hissəsi.

3. **Xüsusi mülkiyyətin girişində yerləşdirilmiş lövhənin reklam hesab edilməsi və lövhə üçün açıq məkanda reklam kimi icazə və ödəniş tələb olunması demokratik cəmiyyətdə zəruridir.**

Demokratik cəmiyyətdə qanuni məqsədə çatmaq üçün mülkiyyətdən dinc şəkildə istifadə edilməsinə müdaxilə hərəkətlərinin həyata keçirilməsi zəruri olmalıdır. O, cəmiyyətin ümumi maraqlarının tələbləri ilə hər bir insanın əsas hüquqlarının tələbləri arasında ağlabatan və ədalətli tarazlıq (balans) yaratmalıdır. Fərdi əmlak sahibinin "fərdi və həddindən artıq yük" daşımağa məcbur olduğu yerdə belə ədalətli tarazlıq əldə edilməyəcəkdir.[13] Ədalətli balans demokratik cəmiyyətin ictimai tələbi ilə fərdin hüquq və qanuni maraqları arasında tənzimləyici rolunu oynayır. Sözügedən ədalətli balansın normativ tələbləri Konstitusiyanın 29-cu maddəsinin V hissəsində öz əksini tapmışdır: "*Xüsusi mülkiyyət sosial öhdəliklərə səbəb olur*". Normadan aydın olur ki, "sosial" ifadəsi *cəmiyyətlə və birgə yaşayış ilə əlaqədar olan*[14] mənasını verdiyindən xüsusi mülkiyyət cəmiyyət qarşısındakı öhdəliklərdən azad deyildir.

Ədalətli balans ifadəsinin izahına AİHM-in praktikasında yer verilmişdir. Belə ki, Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsinə xas olan "ədalətli balans" prinsipi cəmiyyətin marağının mövcudluğunu nəzərdə tutmaqla onun təmin edilməsi zamanı şəxs fərdi və həddən artıq yükə məruz qalmamalı, mülkiyyət hüququnun qanuni məhdudlaşdırılmasında proporsionallıq prinsipinə əməl edilməlidir.[15]

Lövhənin reklam hesab edilməsi, onun üçün icazə və ödəniş tələb edilməsinin zəruriliyi ondadır ki, Şirkət reklam lövhəsi yerləşdirməsindən etibarən həmin lövhə cəmiyyət üzvlərinin diqqətini çəkməklə fərdi miqyasdan kənara çıxır. Belə olduqda isə fərd və ictimaiyyət arasında balansın təmin edilməsi naminə xüsusi mülkiyyətə müdaxilə zəruridir; sözügedən icazə və ödəniş tələbləri olmadığı təqdirdə açıq məkanda reklamların sayı hədsiz dərəcədə arta və ətraf mühitin estetik gözəlliyinə mənfi təsir göstərə bilər. Nəticədə icazə və ödəniş tələb edilməsi demokratik cəmiyyətdə mühümdür.

**B. Reklam qanunvericiliyinin reklam və qeyri-reklam fəaliyyəti göstərən şəxsləri fərqləndirməməsi konstitusional bərabərlik hüququnu pozmur.**

Hüquqi bərabərlik prinsipi eyni və ya oxşar vəziyyətdə olan şəxslərə eyni rəftarın göstərilməsi ilə yanaşı, fərqli vəziyyətdə olan şəxslərə aid fərqli rəftarın göstərilməsini də tələb edir.[16] Bu prinsip dövlətlər tərəfindən "obyektiv və ağlabatan əsaslandırma olmadan" analoji situasiyalarda şəxslərə fərqli münasibət göstərildikdə və ya vəziyyətləri fərqli olan şəxslərə fərqli münasibət göstərilmədikdə pozulmuş hesab olunur.[17] "Obyektiv və ağlabatan əsaslandırma olmadan"

---

[13] Yuxarıdakı istinad 1.

[14] Cambridge Dictionary Online. (Elektron resurs): https://dictionary.cambridge.org/tr/s%C3%B6zl%C3%BCk/ingilizce/social (son baxış: 24 sentyabr 2023)

[15] "Vistins və Perepjolkins Latviyaya qarşı" işi üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Qərarı (no. 71243/01, 2014-cü il), § 95.

[16] " "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 37.3.4-cü maddəsinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair" Konstitusiya Məhkəməsinin Qərarı, (14.11.2014).

[17] Gine Wilhelmina Elisabeth Hoogendijk-in təqdim etdiyi ərizənin qəbuledilənliyi haqqında İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Qərarı (no. 58641/00, 2005-ci il). Səh. 21.

dedikdə isə sözügedən rəftarın "qanuni məqsəd" daşımaması (1) və ya "istifadə olunan vasitələr və güdülən məqsəd arasında ağlabatan mütənasiblik əlaqəsi" olmaması (2) nəzərdə tutulur.[18]

1. **Reklam qanunvericiliyinin reklam və qeyri-reklam fəaliyyəti göstərən şəxsləri fərqləndirməməsi "qanuni məqsəd" daşıyır.**

Qeyd olunduğu kimi vəziyyətləri fərqli olan şəxslərə fərqli münasibətin göstərilmədiyi bütün hallar bərabərlik hüququnun pozulması kimi qiymətləndirilə bilməz[19] və bu məqsədlə, Dövlət tərəfindən həyata keçirilən tədbir ilk növbədə qanuni məqsəd daşımalıdır.[20] Bundan əlavə, göstərilən qanuni məqsədlə iddia olunan bərabərlik hüququnun pozuntusu halı arasında "əlaqə" mövcud olmalıdır.[21]

İşin hallarına əsasən, açıq məkanda quraşdırılmış reklama görə ödəniş sisteminin tətbiqinin əsas məqsədi şəxsləri ətraf mühitin görüntüsünə, həmçinin ictimai təhlükəsizliyə zərər vuran obyektlərin quraşdırılmasından çəkindirmək, bununla da ətraf mühit və ictimai təhlükəsizliyin qorunması siyasətini gücləndirməkdir.[22] Qeyd edilməlidir ki, Dövlət tərəfindən ətraf mühitin, eləcə də ictimai təhlükəsizliyin mühafizəsi yönündə atılmış addımlar qanuni məqsəd hesab olunur və həmin tələblərə cavab verir.[23] Üstəlik, reklam və qeyri-reklam fəaliyyəti göstərən şəxslərin fərqləndirilmədən ödəniş sisteminə cəlb olunması ilə ətraf mühitin və ictimai təhlükəsizliyin qorunması arasında "əlaqə" mövcuddur, çünki bununla ictimai estetikaya zərər vuran, görüntü kirliliyinə səbəb olan istənilən reklamın quraşdırılmasına məhdudiyyət qoyulur.

2. **Reklam qanunvericiliyinin reklam və qeyri-reklam fəaliyyəti göstərən şəxsləri fərqləndirməməsində "istifadə olunan vasitələr və güdülən məqsəd arasında ağlabatan mütənasiblik əlaqəsi" mövcuddur.**

Qanunvericilikdə müxtəlif subyektlərin statusu və bundan irəli gələn hüquq və vəzifələrinin diferensiasiyası özlüyündə ədalətli balans yaratmalı, qanunvericinin istifadə etdiyi vasitələrlə nəzərdə tutduğu məqsəd arasında mütənasiblik əlaqəsi mövcud olmalıdır.[24] Sözügedən balans və əlaqənin təmin edilməsi şəraitdən asılı olaraq dəyişkənlik göstərə biləcəyi üçün Dövlətlərin hüququdur,[25] yəni ədalətli balansa nail olmaq üçün norma yaratma və onların müstəsna tətbiq hüququ Dövlətə mənsubdur. Deməli, bu hüquq üzrə Dövlət qeyri-məhdud səlahiyyətli deyil

---

[18] "Stummer Avstriyaya qarşı" işi üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Qərarı (no. 37452/02, 2011), § 87.
[19] Guide on Article 14 of the European Convention on Human Rights and on Article 1 of Protocol No. 12 to the Convention, § 50. (Elektron resurs: https://www.echr.coe.int/documents/d/echr/Guide_Art_14_Art_1_Protocol_12_ENG (son baxış: 24 sentyabr 2023).
[20] "Fabris Fransaya qarşı" işi üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Qərarı (no. 16574/08, 2013), § 56.
[21] Yuxarıdakı istinad 19, § 66.
[22] Müsabiqə işinin 4-cü hissəsi.
[23] "Təsdiq edilmiş bələdiyyə ovçular birliyinin yaradıldığı tarixdə mövcudluğu tanınmış" torpaq mülkiyyətçiləri birlikləri ilə həmin tarixdən sonra yaradılmış torpaq mülkiyyətçiləri birlikləri arasında rəftar fərqinə dair İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Məsləhətçi Rəyi (2022), § 80.
[24] "Larkos Kiprə qarşı" işi üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Qərarı (no. 29515/95, 1999), § 29.
[25] "Molla Sali Yunanıstana qarşı" işi üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Qərarı (no. 20452/14, 2018), § 136.

və qanunverici mütənasiblik əlaqəsinin formalaşması üçün cəmiyyətin sosial-iqtisadi sferada maraq və ehtiyaclarını nəzərə almalıdır[26].

Qanunda reklam və qeyri-reklam fəaliyyəti ilə məşğul olan subyektlər dairəsinin fərqləndirilməməsi cəmiyyətin maraqları və sosial-iqtisadi ehtiyaclar prizmalarından məqsədəmüvafiqdir, çünki ölkə rayonlarının iqtisadi dövriyyə həcmi bərabər olmadığı üçün hesablamadakı 0.5 əmsal[27] Topçubaşov daxil iqtisadi cəhətdən zəif inkişaf etmiş rayonlardan toplanmış yekun rüsumun ədalətli olmasına xidmət edir, həmçinin açıq məkanda reklam yerləşdirilməsi üçün qanunvericilikdəki rüsum miqdarı böyük məbləğ olmadığından mütənasiblik yaradır. Qanunvericinin istifadə etdiyi vasitə (diferensiasiya metoduna müraciət etməməsi) ilə qarşısına qoyduğu məqsəd (açıq məkanda görüntü kirliliyi ilə mübarizə)[28] arasında rasionallıq mövcuddur, əks təqdirdə rasional-obyektiv izaha rəğmən fərqli subyektlərə eyni qaydaların tətbiqi bərabərlik prinsipini pozur.[29]

**C. İcazə ilə bağlı dövlət rüsumundan əlavə yayım haqqının tələb edilməsi qaydası dövlət ödənişlərinin qanunla müəyyən edilməsi barədə konstitusional tələbə uyğundur.**

Konstitusional tələb vergi və başqa dövlət ödənişlərinin yalnız "qanunla" nəzərdə tutulmalı olduğunu vurğulayır.[30] Bu halda, Konstitusiyanın mahiyyətinə əsasən, həm dövlət ödənişlərinin əsası (1), həm də həcmi (2) "qanunla" müəyyən olunmalıdır.

**1. İcazə ilə bağlı yayım haqqının əsası qanunla müəyyən edilmişdir.**

İcazə üçün açıq məkanda reklam yayımına görə haqqın mövcudluğu məhz reklam qanunvericiliyinin əsası olan "Reklam haqqında" qanunda vurğulanmışdır.[31] Həmçinin, qanunda yayım haqqının məbləğinin Prezident fərmanı[32] ilə müəyyən edilməsinin də əsası müəyyən olunmuşdur.[33] Bu onu göstərir ki, dövlət ödənişi olan yayım haqqı məbləğinin əsası konstitusional tələbdəki kimi qanunla nəzərdə tutulmuşdur.

**2. İcazə ilə bağlı yayım haqqının həcmi "qanunla" müəyyən edilmişdir.**

Normativ hüquqi aktlarda işlədilən "qanun" ifadəsi həm *formal* mənada (yalnız adı Qanun olaraq keçən normativ hüquqi aktlar), həm də *maddi* mənada (bütövlükdə hüquq norması kimi) təfsir edilə bilər.[34] Bu halda "istisna müəyyən edən normalardan başqa, ümumi münasibətləri

---

[26] "Andrejeva Latviyaya qarşı" işi üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Qərarı (no. 55707/00, 2009), § 83; "Burden və Burden Birləşmiş Krallığa qarşı" işi üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Qərarı (no. 13378/05, 2008), § 60.

[27] "Açıq məkanda reklam fəaliyyəti ilə bağlı bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş Açıq məkanda reklam yayımına görə ödənilən haqqın məbləği, maddə 3.2.4 (2017).

[28] Müsabiqə işinin 13-cü hissəsi.

[29] " "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" AR Qanununun 2.1.5-ci maddəsinin AR Mülki Məcəlləsinin 1151.1, 1152, 1243, 1255 və 1321-ci maddələri baxımından şərh edilməsinə dair" Konstitusiya Məhkəməsinin Qərarı (08.12.22).

[30] Azərbaycan Respublikasının Konstitusiyası, maddə 73.2 (1995).

[31] Yuxarıdakı istinad 4, maddə 26.2.

[32] "Reklam haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında Azərbaycan Respublikası Prezidenti Fərmanı, maddə 2.1 (2015).

[33] Yuxarıdakı istinad 4, maddə 35.3.

[34] Mehdiyev Fərhad, Hüquq nəzəriyyəsi, 2017, s. 105.

tənzimləyən normaların geniş təfsir edilməsi (***Generalis regula generaliter est intelligenda***)”[35] prinsipinə görə, Konstitusiyanın 73-cü maddəsinin II hissəsində işlədilən “qanun” ifadəsi daha geniş, maddi mənada başa düşülməlidir. Bu mövqe Konstitusiya Məhkəməsi praktikasında da öz əksini tapmış, qeyd edilmişdir ki, 73-cü maddənin II hissəsi vergilərin və başqa dövlət ödənişlərinin ödənilməsinin yalnız *qanunvericiliklə* müəyyən olunmasını tələb edir.[36] Azərbaycan Respublikasının qanunvericilik sisteminə nəzər saldıqda isə müşahidə etmək mümkündür ki, bura həm də fərmanlar daxildir.[37] Deməli, Məhkəmə öz mövqeyində “qanun” ifadəsini bütöv qanunvericiliklə bərabər tutaraq bu anlayışı geniş təfsir etmişdir.

Yuxarıda göstərilənləri nəzərə alaraq icazə ilə bağlı yayım haqqının həcmi müvafiq fərmanla müəyyən olunmuş və bu haqqın fərmanla müəyyən olunmasına qanunvericilik tərəfindən heç bir məhdudiyyət tətbiq edilməmişdir.

**D. Əvvəlki dövrə aid icazə alınmasının və ödənişlərin tələb edilməsi hüquqauyğundur.**

Şirkət tərəfindən müraciətdən əvvəlki dövrə aid icazə alınmalı və ödənişlər ödənilməlidir, çünki Şirkətin qanunu yanlış təfsir etməsi müvafiq pozuntunu aradan qaldırmır (1), həmçinin icazə alınması və yayım haqqının ödənilməsi münasibətləri publik hüquq münasibətləridir (2).

**1. Şirkət tərəfindən qanunun yanlış təfsir edilməsi qanundan irəli gələn pozuntunu aradan qaldırmır.**

Konstitusiyanın tanınmış prinsiplərindən birinə əsasən qanunu bilməmək tərəfləri onun gətirdiyi məsuliyyətdən azad etmir.[38] Bu prinsip qanunu bilməməklə yanaşı, həmçinin onu yanlış başa düşməyin də qanunun tətbiq edilməməsinə və ya nəzərdə tutulmuş məsuliyyətdən azad edilməyə əsas vermədiyini ehtiva edir.[39] Bundan əlavə, açıq məkanda reklam yerləşdirmək üçün müvafiq icazənin alınması “Reklam haqqında” qanunda reklam yayıcısının öhdəliyi kimi vurğulansa da,[40] “açıq məkanda yerləşdirilmiş reklam qurğularının və yayımlanan reklamların qanunvericiliyin tələblərinə uyğunluğunu yoxlamaq, onların həmin tələblərə uyğunlaşdırılması üçün göstərişlər vermək” Agentliyin hüququ olaraq müəyyənləşdirilmişdir.[41] Agentlik İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirləri isə yalnız reklam yayıcılarının hərəkətlərində açıq məkanda reklam üzrə inzibati xəta əlamətləri *aşkar etdikdə* görməlidir.[42]

Qanunvericiliyə nəzər saldıqda görünür ki, açıq məkanda yayımladığı reklama görə Şirkətin Agentlikdən müvafiq icazəni almaq öhdəliyi olduğu halda, Şirkət “Reklam haqqında” qanunun tələblərini yanlış anlayaraq açıq məkanda yerləşdirdiyi lövhəni reklam hesab etməmişdir.[43] Belə olduğu halda, Agentliyin lövhənin quraşdırıldıqdan dərhal sonra müvafiq icazənin alınması üçün bildiriş göndərmək kimi öhdəliyi yoxdur. Qanunvericiliyə uyğun şəkildə Agentlik müvafiq pozuntunu *aşkar etdikdən* sonra xəbərdarlıq göndərmişdir. Nəticədə, Şirkət üzərinə düşən öhdəliyi yerinə yetirmədiyindən pozuntunun edildiyi andan etibarən boyun qaçırdığı ödənişləri ödəməlidir.

---

[35] Gözler Kemal, Hukuka Giriş, 2022, s. 339-344.

[36] “A.Aslanov və L.Səbizovanın şikayətləri üzrə AR Ali Məhkəməsinin İİK-n 18/05/16 il tarixli qərarlarının AR Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair” Konstitusiya Məhkəməsinin Qərarı (10.03.2017).

[37] Yuxarıdakı istinad 30, maddə 148.1(4).

[38] Yenə orada, maddə 72.3.

[39] Azərbaycan Respublikasının Mülki Məcəlləsi, maddə 9.3 (1999).

[40] Yuxarıdakı istinad 4, maddə 26.2.

[41] Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 31 iyul tarixli 1566 nömrəli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinin Nizamnaməsi, maddə 2.3.1-2 (2017).

[42] Yenə orada, maddə 2.2.10.

[43] Müsabiqə işinin 5-ci hissəsi.

2. **Tərəflər arasında icazə alınması və yayım haqqının ödənilməsi münasibətləri publik hüquq münasibətləridir.**

Açıq məkanda reklam yerləşdirilməsindən irəli gələn münasibətlərin tənzimlənməsinə dövlət ciddi nəzarət etdiyi üçün reklamın yayımı məqsədli nəzərdə tutulmuş icazə alınması və yayım haqqının ödənilməsi münasibətləri publik hüquq münasibətləridir. Publik hüquq münasibətlərini xüsusi hüquqdan fərqləndirən amillər subordinasiyanın mövcudluğu[44], geniş iradə sərbəstliyinin olmaması[45] və özlüyündən – *re`sen* tətbiqetmədir[46]. Sonuncuya diqqət yetirsək, *re`sen* qaydası onu göstərir ki, publik hüququ tənzim edən qaydalar özlüyündən mövcuddur, hər hansı orqanın tələbinin olmasından asılı olmayaraq tətbiq edilməlidir və bu olmazsa, məsuliyyətə səbəb olur.[47] Halbuki xüsusi hüquqda qaydalar özlüyündən deyil, tərəflərin iradəsinin nəticəsi olaraq ortaya çıxır.

Mübahisəyə baxdıqda 2017-ci ilin dekabrda yayım haqqının məbləği təsdiq edildikdən sonra Agentliyin tələbi olmadan Şirkət özünün publik hüquqi öhdəliyini yerinə yetirməli – yayım haqqını ödəməli idi. Deməli, Agentliyin 2020-ci ildə müraciət etməsi şirkəti 01.01.2018-dən ildən etibarən ödəməli olduğu yayım haqqı məbləğindən azad etmir.

## Arqumentlərin xülasəsi

I. Xüsusi mülkiyyətin girişində yerləşdirilmiş lövhənin reklam hesab edilməsi və lövhə üçün açıq məkanda reklam kimi icazə və ödəniş tələb olunması konstitusional mülkiyyət hüququna zidd deyil.

II. Reklam qanunvericiliyinin reklam və qeyri-reklam fəaliyyəti göstərən şəxsləri fərqləndirməməsi konstitusional bərabərlik hüququnu pozmur.

III. İcazə ilə bağlı dövlət rüsumundan əlavə yayım haqqının tələb edilməsi qaydası dövlət ödənişlərinin qanunla müəyyən edilməsi barədə konstitusional tələbə uyğundur.

IV. Əvvəlki dövrə aid icazə alınmasının və ödənişlərin tələb edilməsi hüquqauyğundur.

[44] Edis Seyfullah, Medeni hukuka giriş ve başlangıc hükümleri, 1983, s. 17; Atay Cevdet, Hukuka giriş, 1997, s. 8.
[45] Edis, yenə orada; Bilge Necip, Hukuk Başlangıcı: Hukukun temel kavramı ve kuramları, 2005, s. 179; Gözübüyük A.Şeref, Hukuka giriş ve hukukun temel kavramları, 2006, s. 23.
[46] Edis, yenə orada, s. 18; Gözler, yuxarıdakı istinad 35, s. 89.
[47] Gözler, yuxarıdakı istinad 35, s. 89-90.

## Məhkəməyə müraciət

Yuxarıda qeyd olunan faktiki halları nəzərə alaraq və qeyd edilən hüquq normalarına əsaslanaraq Məhkəmədən

**XAHİŞ EDİRİK:**

1. “Süngün” MMC-nin Açıq Məkanda Reklam Agentliyinə qarşı lövhənin reklam hesab edilməməsi, ödənilmiş dövlət rüsumu və cərimənin qaytarılması, müraciətdən əvvəlki dövr üçün dövlət rüsumu və yayım haqqının tələb edilməsinin hüquqazidd sayılması tələbinə dair inzibati iş üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının qərarının Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinə, Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 96.8-ci maddəsinə uyğun olduğundan qüvvədə saxlanılsın.
2. İşə bu Qərarda göstərilən hüquqi mövqelərə uyğun olaraq Azərbaycan Respublikasının inzibati prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada iddia təmin olunmamış saxlanılsın.